# Nadir AZAYOĞLU - 60



**Sənin sevdiyin var, səni sevən var,**
**Sən ki gözü-könlü toxsan, bəsimdi.**

Hörmətli Nadir müəllim!

Sizi - istedadlı şairimizi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa keçən əsrin 80-ci illərindən başlamısınız. İlk yaradıcılıq nümunələriniz həmin illərdə dövri mətbuatda çap olunmuşdur. 1995-ci ildə Rəsul Rza adına Xalq Universitetini, 2009-cu ildə isə Bakı Slavyan Universitetinin Yaradıcılıq fakültəsini bitirmisiniz. Uzun illər mətbuat sahəsində çalışmısınız. Bədii yaradıcılıqla yanaşı, gənclərə dəstək olmuş, onların tanınmasına çalışmısınız.

Sizin indiyə kimi çap olunan "Bilsəm ki" (2017), "Ruhlarımız girov düşüb" (2002) kitablarınız oxucular tərəfindən maraqla qarşılanıb.

Şeirlərinizdə vətənpərvərlik, itirilən yurd yerlərinin ağrısı, insana, təbiətə məhəbbət, sevgi duyğuları, müharibəyə nifrət öz əksini tapır.

Şeirləriniz ictimaiyyətin diqqətini daim cəlb edib. Prezident təqaüdünə layiq görülmüsünüz.

Hörmətli Nadir müəllim!

Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi*

## Nadir AZAYOĞLU

* * *

Torpaq çəkdi,
gəldim hamı kimi
Gözlərimdə göylərin kölgəsi.
Dəmini necə sevdimsə
Qəmini də elə sevdim dünyanın.
Nə ölümündən,
nə də zülümündən
qorxdum dünyanın.
Hər nə vardı gəldi-gedər,
Hər nə oldu qədər bildim,
Bilənlər kimi.
Torpağında
ölmüş insanların qoxusu,
Göylərində
Tanrı qorxusu vardı -
Sevdim!

### Gəlirəm

Məni belə fağır bilmə,
Hələbdən, Xoydan gəlirəm.
Ruhum yurda yas saxlayır,
Təbrizdən toydan gəlirəm.

Xəbis oğlu, nakəs gədə
Bu nə barmaq, bu nə hədə?!
Tanrılı enməz heç vədə,
Tanrılı taydan gəlirəm.

Bilirsənmi nər türk nədi,
Bəy türk nədi, ər türk nədi?
Mosul nədi, Kərkük nədi -
Aşıb Altaydan gəlirəm.

Qalır "bəlkə"si, "hələ"si,
Dəmə əyilib şələsi.
Min duzağı, min tələsi
Olan bir boydan gəlirəm.

Çaylar keçdim bir dəryacan,
O tayı ruh, bu tayı can.
Mən Doğudan Batıyacan
Ulu bir soydan gəlirəm.

### Bəsimdi

Səndən nə gözləyib, nə umasıydım?!
Sən elə mənimçün haqsan, bəsimdi.
Bahar həvəsinlə payız ömrümə
Bənövşə baxışı baxsan bəsimdi.

Hər gün bir "məclisdə" min qat enən var,
Hər gün bir ünvandan geri dönən var,
Sənin sevdiyin var, səni sevən var,
Sən ki gözü-könlü toxsan, bəsimdi.

Daş altda çiçək var, ətrinə hayıf,
Ovunmaz, oxşanmaz xətrinə hayıf,
Şeirimin bir-iki sətrini sayıb
Bir ətək qayğıdan çıxsan bəsimdi.

Bir belə haqsızlıq, bu şər içində,
Nadirin bir nisgil bişər içində
Belə başıpozuq bəşər içində
Bütövsən bəsimdi, sağsan, bəsimdi.

### Məktub

Hər məni görəndə yuxu söyləmə,
Məhəbbət xəyalı sevir, əzizim.
Hər yuxu görəndə qorxub eləmə,
Oyan, yastığını çevir, əzizim.

Mənsiz gecələrin ömrünə bir yas,
Mənsiz yatağına zülmət sürünər.
Sən mənim şəklimi bağrına bərk bas,
Bəlkə pəncərəndə boyum görünər.

Belə gecələri nə sirr, nə tilsim,
Nə əcəl əyləyir, nə ölüm çəkir,
Hər gecə sinənə qısılan əksim,
İndi mən bilirəm nə zülüm çəkir.

Kimdir canı yana, qəlbi od tuta,
Görə kirpiyindən qəm astığını,
Neynim, əllərinə əllərim çata,
Çevirəm astaca nəm yastığını.

Gecə cəlladıdır ağrılı canın,
Çəkər öz kamına neçələrini,
Sirrini bilsəydim, vallah dünyanın
Alardım əlindən gecələrini.

Hər məni görəndə yuxu söyləmə,
Məhəbbət xəyalı sevir, əzizim!
Hər yuxu görəndə, qorxub eləmə,
Oyan, yastığını çevir, əzizim!

### Gördük

Duyğusuz olmadıq, kar yaşamadıq,
Dünyanın hər nəyi varıdı, gördük.
Yurd-yuva nisgili, yaylaq həsrəti,
Gözlərdə qocaldı, qarıdı, gördük.

Ölüm nə idi ki, yaman əyildik,
Gora geymədik ha, gora geyildik.
Ayaqlar altında, kər ha deyildik
Gedən namusudu, arıdı, gördük.

Bizə daş atdılar, daşa bax - dedik,
Gözlərdən süzülən yaşa bax - dedik.
Buna ömür dedik, yaşamaq dedik,
Bu ömür min ahu-zarıdı, gördük.

Sonu görünmədi bu bəhsəbəhsin,
Doğrahadoğranın, bu kəsbəkəsin.
Biz kimik, nəçiyik bilən nakəsin
Gen dünya başına darıdı, gördük.

Ay Nadir, nərimiş dərdi çəkən, nər,
Kor qalsın bu dəni dərin əkənlər.
Bu yurdun qəmindən qəhrin çəkənlər,
Dəmindən özgələr yarıdı, gördük.

* * *

Çəkilib gedəsən özün özündən,
Kəsilə ayağın bu yer üzündən
Bir də düşməyəsən Tanrı gözündən,
Bir də bu torpağa qayıtmayasan.

Dizin göynəməyə hər addım başı,
İtə qayaların çəpər yaddaşı.
Gəzəsən göylərin quş qanadında,
Ordanca süzəsən yurdu, yurddaşı.
Bir də bu torpağa qayıtmayasan.

Nəyin var çəkilə haqq ayağına,
Bir üz sənin ola, bir üz Allahın.
Nələr çəkdiyini kimsə bilməyə,
Bir özün olasan, bir öz Allahın.

Bir də doğmaları didərgin düşən,
Eli yağmalanmış Türkmən yurdları,
Bir də hikkəsindən qovrulub bişən
Qaratel gecədə elat Qurdları
Ulaşa-ulaşa üstünə gələ.
Yaralı çibantək göz-göz olasan,
Korun-korun yanıb köz-köz olasan,
Mələklər çığrışıb tüstünə gələ.
Kölgətək yenəsən çay qırağına,
Azadlıq nə imiş? Fərqi deyəsən.
Viranə yurdlara, kar kahalara
Boxtəvər-boxtəvər şərqi deyəsən,
Bir də bu torpağa qayıtmayasan.

* * *

- Yadında olar -
Yadında olar?!
Siyah tellərinçün
ağca güllər
bitirən torpaq, -
bax o torpaq qədər...

Yadında olar?!
Əllərinin nazından sürüşüb
Həkərinin sularına
can verən yarpaq, -
bax o yarpaq qədər...

Bir də hənirtimizi
hənirtisində itirən bulaq
bax o bulaq qədər
sevmişdim səni.

Səni o torpaq qədər,
Elə o yarpaq qədər,
Hələ o bulaq qədər
sevsəm də,
indi əllərim
nə qara günlü Laçına,
nə də ağca güllü saçına
yetəndi.